# Xarici işlər nazirliyində

Noyabrın 10-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fransa Respublikası Prezidentinin diplomatik müşaviri Emmanuel Bon ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə postmünaqişə mərhələsində bölgədə hazırkı vəziyyət və yeni reallıqlar ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə postmünaqişə fazasına aid məsələlər - azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi, dağıdılmış ərazilərimizin bərpası, regionda kommunikasiyaların açılması, Ermənistanla sərhədlərin delimitasiya və demarkasiyasının həyata keçirilməsi, Ermənistan ilə Azərbaycan arasında beynəlxalq hüququn norma və prinsipləri əsasında münasibətlərin normallaşdırılması, Azərbaycan tərəfindən bu istiqamətdə birtərəfli qaydada həyata keçirilən tədbirlər haqqında məlumat verib. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin edilməsinin tərəfdarı olduğu vurğulanıb.

Söhbət zamanı həmçinin Azərbaycan-Fransa ikitərəfli münasibətlərin cari vəziyyəti müzakirə edilib. Tərəflər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və siyasi dialoqun aktivləşməsinə hazırlığı və maraqlarını ifadə ediblər.

* * *

Noyabrın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov UNESCO-nun Baş direktoru Odri Azule ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazir Ceyhun Bayramov UNESCO-nun Baş direktoru vəzifəsinə yenidən seçilməsi münasibətilə Odri Azuleni təbrik edib. O, ölkəmizin UNESCO ilə səmərəli və hərtərəfli əməkdaşlıqda, təşkilatın önəmli tərəfdaşlarından biri kimi ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edib.

Görüşdə mədəniyyət, təhsil, sosial və humanitar elmlər sahəsində əlaqələrə toxunulub, Azərbaycanın bundan sonra da təşkilatın ali məqsədlərinin təbliğinə səylərini davam etdirəcəyi diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə irəli sürülmüş "Bakı Prosesi" kimi tanınan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizin mədəniyyətlər və dinlərarası dialoqa, tolerantlıq və multikulturalizmin təşviqinə verdiyi töhfələr vurğulanıb.

Azərbaycan-UNESCO Etimad Fondundan Təşkilatın iki əsas prioritetindən olan Qlobal Afrika Prioriteti və Gender bərabərliyi sahəsində reallaşdırılan layihələrdən söz açan nazir pandemiya zamanı təhsilin davamlılığını təmin etmək məqsədilə UNESCO-nun təşəbbüsü ilə yaradılmış Qlobal Təhsil Koalisiyasına Azərbaycanın verdiyi töhfəni qeyd edib.

Bundan əlavə, nazir Ceyhun Bayramov Azərbaycanın dahi mütəfəkkiri və şairi Nizaminin 880 illik yubileyinə həsr olunan, UNESCO-nun mənzil-qərargahında təşkil edilmiş tədbirin həmtəşkilatçısı olduğuna görə xanım Baş direktora təşəkkürünü bildirib.

Öz növbəsində Odri Azule Azərbaycana təşkilata verdiyi daimi dəstəyə görə minnətdarlığını ifadə edib və artan templə inkişaf edən münasibətlərin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib.

---

Azərbaycan.- 2021.- 11 noyabr.- S.13.